QANUN № 01 (375), 2026, s. 47-51

**Paşayev Araz Nadir oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının qiyabi doktorantı
E-mail: araz.pashayev83@gmail.com

**UOT 349.2**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4012**

# AZƏRBAYCAN RESPUBLİKASINDA DİSTANT ƏMƏYİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏSİNƏ DAİR

***Açar sözlər:*** *işçi, iş, əmək müqaviləsi, məsafədən iş, distant iş.*

***Ключевые слова:*** *работник, работа, трудовой договор, удаленная работа, дистанционная работа.*

***Keywords:*** *employee, job, employment contract, remote work.*

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə uyğun olaraq:

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir [1].

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-cı illər üçün Milli Strategiya"da qeyd olunurdu ki, Konsepsiyada müəyyən edilmiş hədəfə çatmaq üçün növbəti on ildə İKT sektorunun həcminin 4–4,5 dəfə genişləndirilməsi, İKT-nin iqtisadi potensialının gücləndirilməsi, cəmiyyətin İKT ehtiyaclarının genişləndirilməsi tələb olunur. İKT-nin, o cümlədən internet iqtisadiyyatının inkişaf etdirilməsi ənənəvi iqtisadi sahələrin inkişafında da mühüm rol oynayacaqdır [5].

Məhz internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılması, rəqiblər üzərində strateji üstünlüyün əldə olunması, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsi, informasiya resurslarından optimal istifadə olunması və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırılması üçün şərait yaradır. Cəmiyyətdə İKT-nin inkişafından istifadənin imkanlarını genişləndirmək məqsədilə, ilk növ-

bədə, əhalinin İKT sahəsində biliklərinin artırılması, vətəndaşların görülən işlər və mövcud imkanlar barədə məlumatlandırılması, informasiya əlçatanlığını təmin edən ictimai mərkəzlərin fəaliyyətinin təşkili, eləcə də kompüterlərin güzəştli şərtlərlə əldə olunması üçün imkan yaradılmışdır.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək funksiyalarını distant və ya telekommunikasiya formalarında yerinə yetirən işçilər üçün hüquqi əsasların yaradılması istiqamətində fəaliyyət göstərir. İlk növbədə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin (bundan sonra qısa olaraq AR ƏM adlandırılacaqdır) əsas anlayışlar siyahısına "məsafədən (distant) iş terminin daxil edilməsi nəzərdə tutulmuş və "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında, "Narkoloji xidmət və nəzarət haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardım haqqında, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında", "Hesablama palatası haqqına" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 16 yanvar tarixli Qanunu ilə AR ƏM-in 3-cü maddəsinə aşağıdakı məzmunda 9-2-ci hissə əlavə edilmişdir: "Məsafədən (distant iş) – əmək funksiyasının məsafədən icrasına imkan verən vasitələrlə (elektron, proqram-texniki, telekommunikasiya vasitələri və s.) müəssisədən və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerlərindən kənarda (işlərin görülməsi (xidmətlərin göstərilməsi) üçün münasib olan digər yerdə) yerinə yetirilməsi"dir.

Hesab edirik ki, AR ƏM-in 3-cü maddəsinə "Teleiş"lə bağlı aşağıdakı məzmunda 9-3-cü hissəsinin əlavə edilməsinə ehtiyac vardır: "Teleiş" – əmək funksiyalarının ev şəraitində telekommunikasiya vasitələri əsasında yerinə yetirilməsi forması". Qeyd etmək lazımdır ki, bu istiqamətdə aparılan işlər Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan Tədbirlər Planı əsasında həyata keçirilir. Beləliklə, həmin planda telekommunikasiya işinin dünya təcrübəsinin öyrənilməsi və onun tətbiqi mexanizmlərinə dair təkliflərin hazırlanması da nəzərdə tutulmuşdur [5].

Azərbaycan Respublikası Nazirlər Kabineti 31 mart 2020-ci il tarixində ölkə ərazisində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərin davam etdirilməsi məqsədilə 122 nömrəli qərar qəbul etmişdir.

Qərarda qeyd olunur:

1. Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin rejimi dövründə (31 mart – 20 aprel 2020-ci il) koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə aşağıdakı xüsusi iş (əmək) rejimi tətbiq edilsin:

1.1. "Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin rejimi dövründə işə cəlb olunmuş dövlət orqanları və strukturların siyahısı, rəhbərləri və zərurət olduqda işçiləri" Nazirlər Kabinetinin Qərarına əlavə edilmiş 1 nömrəli əlavəyə uyğun olaraq müəyyən edilsin;

1.2. Qərarın 1 nömrəli əlavəsində nəzərdə tutulmuş dövlət orqanları və strukturların rəhbər-

lərinə öz strukturlarının fəaliyyətini təmin etmək məqsədilə məhdud sayda işçini işə cəlb etmək və onları cəlb olunan günlər əvəzinə il ərzində əlavə istirahət günləri ilə təmin etmək tapşırılsın;

1.3. dövlət orqanları və strukturlarında işə cəlb edilməmiş işçilərin əmək haqqı saxlanılsın;

1.4. işəgötürənlərə, Qərarın 2 nömrəli əlavəsində göstərilmiş sahələrdən başqa, fəaliyyətinə icazə verilmiş sahələrdə işə cəlb edilməmiş işçilərin əmək haqqını saxlamağı qəti tövsiyə etmək;

1.5. imkan olduqda, işə cəlb edilməmiş işçilərin işlərini evdən, eləcə də distant (məsafədən) və ya teleiş forması üzrə təmin etmək;

1.6. xüsusi iş (əmək) rejiminin tətbiqi ilə əlaqədar olaraq, 2020-ci il üçün istehsalat təqvimi və iş vaxtı norması dəyişdirilməsin [6].

Beləliklə, yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, Azərbaycan Respublikasında distant işçilərin əmək münasibətlərinin hüquqi tənzimlənməsi üçün bütün zəruri əsaslar COVID-19 koronavirus infeksiyasının yayılması dövründə yaradılmışdır.

Distant iş şəraitində işçi və işəgötürən arasındakı qarşılıqlı münasibətlər bir çox yurisdiksiyalarda artıq kifayət qədər tanış bir haldır. COVID-19 pandemiyası dövründə və əmək münasibətlərinin mərhələli şəkildə rəqəmsal (digital) mühitə keçirilməsi şəraitində, məsafədən iş işəgötürənlər və işçilər üçün 2021-ci ilin xarici və daxili çağırışlarına universal cavab rolunu oynadı. Distant iş şərtləri əsasında əmək müqaviləsinin, o cümlədən əcnəbi işçilərlə bağlanması məsələləri hələ də dünya miqyasında, o cümlədən Azərbaycan Respublikasında aktuallığını qoruyur. Aşağıda qeyd edilən məsələlərin hüquqi tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir:

1) distant işin mexanizmi, işəgötürən və işçilərin xüsusi vəzifələri;

2) işçilərin distant işə keçirilməsi proseduru;

3) distant iş mexanizminin üstünlükləri və mənfi cəhətləri (bu mexanizmin təkmilləşdirilməsinin zəruriliyi);

4) əcnəbi işçilər üçün distant iş imkanları və s.

AR ƏM-ə edilmiş əlavə və dəyişikliklərə əsasən, Əmək Məcəlləsi yalnız işəgötürən tərəfindən yaradılmış iş şəraitində işləyən işçilərə deyil, həm də aşağıdakı vəzifələri yerinə yetirən şəxslərə şamil olunacaq:

1) evdən;

2) yaxud işin yerinə yetirilməsi üçün uyğun olan digər istənilən məkandan;

3) işin yerinə yetirilməsi prosesinin idarə edilməsi və əlaqə üçün distant vasitələrdən istifadə edildiyi halda.

Distant işlə bağlı AR ƏM-ə edilmiş əlavə və dəyişikliklərin məqsədi məşğulluğun distant formasının tənzimlənməsi üçün tamhüquqlu qanunvericilik bazasının formalaşdırılması, eləcə də fiziki olaraq müəssisənin ərazisində olmayan işçilər üçün hüquqi təminatların təmin edilməsidir.

Yeni mexanizm müəssisələrə işçiləri rəsmi şəkildə uzaqdan iş şərtləri əsasında işə qəbul etməyə imkan verəcək, onlara qanunla nəzərdə tutulmuş bütün hüquq və vəzifələri təmin edəcəkdir.

Hesab edirik ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi bir sıra hüquqi problemləri həll edəcək, ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək və əlavə imkanlar yaradacaq:

- şəhərətrafı və ya kənd ərazilərindən işə getməyə məcbur olan vətəndaşlar üçün yola sərf edilə biləcək vaxtın qənaətinə imkanı yaradacaq;
- yeni iş yerləri yaradacaq;
- uşaqlı ailələr və əlilliyi olan şəxslər üçün əlavə gəlir əldə etmək, ailəni təmin etmək, uşaqlara və qohumlarına daha çox diqqət ayırmaq imkan yaradacaq;
- əcnəbi işəgötürən üçün çalışan ölkə vətəndaşlarının hüquqi vəziyyətinin, o cümlədən tibbi və pensiya təminatı məsələlərinin tənzimlənməsinə şərait yaradacaq;

- xidmətlərin göstərilməsi, veb-dizayn, konsaltinq, çatdırılma və digər fəaliyyət növləri kimi sahələr daha sürətli templərlə inkişaf edəcəkdir.

Lakin təkcə yuxarıda sadalanan əlavə və dəyişikliklərin edilməsi, fikrimizcə, kifayət etmir. Əsas məsələnin – distant işçinin zəruri texniki vasitələrlə təmin edilməsi, internet, elektrik enerjisi və digər xərclərinin ödənilməsi, habelə əməyin mühafizəsinin, istehsalatda bədbəxt hadisələrdən qorunmanın və digər risklərdən müdafiəsinin təmin edilməsi zəruridir. Bundan əlavə, distant işçinin əmək intizamı məsələsi də xüsusi diqqət tələb edəcəkdir. Məsələn, üzrlü səbəb olmadan işə gəlməməyə görə işdən azadetmənin mümkünlüyü, süni intellektdən istifadə, işəgötürən tərəfindən nəzarət mexanizmləri, habelə intizam məsuliyyətinə cəlb edilmə məsələləri.

Beləliklə, Azərbaycan Respublikasında distant işçilərin əməyinin hüquqi tənzimlənməsinə artıq çoxdan ciddi ehtiyac formalaşmışdır ki, bu da həmin hüquq institutunun "daha işlək olmasına" və gələcəkdə onun da təkmilləşdirilməsinə imkan verəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Hüquq Yayın Evi, – 2025. – 63 s.

2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi // Azərbaycan Respublikasının 1 fevral 1999-cu il tarixli 618-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. – Bakı: Hüquq Yayın Evi, – 2025. – 372 s.

3. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyin himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında, "Narkoloji xidmət və nəzarət haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardım haqqında, " Gender ( kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında", " Hesablama palatası haqqına" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2026-cı il 16 yanvar tarixli Qanunu: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46943

4. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, №4, maddə 374

5. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, №9, maddə 1540

6. " Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-cı il 31 mart tarixli 122 nömrəli Q ərarı /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, №3, maddə 383

**Пашаев Араз Надир оглу,**
заочный докторант кафедры трудового и экологического права
юридического факультета Бакинского государственного университета

## К ВОПРОСУ О ПРАВОВОМ РЕГУЛИРОВАНИИ ДИСТАНЦИОННОГО ТРУДА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### РЕЗЮМЕ

В статье указывается, что новый механизм позволит предприятиям официально оформлять работников на условиях дистанционной работы, обеспечивая их всеми правами и обязанностями, предусмотренными законодательством. В статье также отмечается, что в Азербайджанской Республике уже давно возникла необходимость в правовом регулировании труда дистанционных работников, что будет способствовать более эффективному функционированию данного правового института и его дальнейшему совершенствованию в будущем.

**Paşhayev Araz Nadir,**
Part-time doctoral student, Department of Labor and
Environmental Law, Faculty of Law, Baku State University

## THE ISSUE OF LEGAL REGULATION OF DISTANCE LABOR IN THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

The article indicates that the new mechanism will allow enterprises to formalize employees on remote work terms, providing them with all the rights and obligations stipulated by law. The article also notes that there has long been a significant need for legal regulation of the work of remote workers in the Republic of Azerbaijan, which will make it possible to “legitimize” this legal institution and improve it in the future.

**Redaksiyaya daxilolma tarixi: 18.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 25.01.2026**
**Çapa qəbul olunma tarixi: 29.01.2026**